“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi”
Qapalı Səhmdar Cəmiyyətinin
30 dekabr 2015-ci il tarixli 262 nömrəli
əmri ilə təsdiq edilmişdir.

# “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyətinin

## Biznes Etikası Məcəlləsi

BAKI-2015

## ***Giriş***

*Daha sürətli inkişafı təmin etmək məqsədilə "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti (mətndə - Cəmiyyət) tərəfindən beynəlxalq təcrübəyə uyğun olaraq effektiv korporativ idarəetmə sistemi əsasında institusional tədbirlər həyata keçirilir, lazımsız risklərdən qorunmaq, nəzarət üsullarını müəyyənləşdirməklə fəaliyyətə nəzarət etmək, habelə Cəmiyyətin missiyasını işçilərə, şirkətlərə və ümumilikdə insanlara çatdırmaq üçün müvafiq norma və qaydaları ehtiva edən daxili sənədlər təsdiq edilir.*

*Cəmiyyətin əsas məqsədi müasir korporativ idarəetmənin prinsip və üsullarının tətbiqi ilə fəaliyyətində şəffaflığı, səmərəliliyi təmin etmək, Cəmiyyətin beynəlxalq nüfuzunu, etibarlı tərəfdaş imicini yüksəltmək, xidmət sferasını genişləndirmək, bununla da gəlirləri artıraraq maddi-texniki bazasını inkişaf etdirmək, işçilərin sosial müdafiəsini gücləndirmək və hər bir əməkdaşa fayda verməkdən ibarətdir.*

*Korporativ idarəetmə öz növbəsində müəssisənin məqsədlərini və bu məqsədlərə nail olmaq, habelə fəaliyyətə davamlı nəzarət etmək vasitələrini müəyyən edən daxili sənədlərin təsdiq olunmasını zəruri edir. Yüksək biznes etikası, şəffaflıq, qarşı tərəflərə hörmət, etik standartların gözlənilməsi və şəxsi dürüstlük müəssisəyə inamı, etibarı təmin edir, eləcə də onun nüfuzunu artırır. Bu səbəbdən, habelə Cəmiyyətin rəhbərliyinin, əməkdaşlarının qeyri-etik davranışlarının Cəmiyyət və onunla əlaqəli olan şəxslər üçün uğursuzluqlar yaratmaması üçün etika qaydalarını müəyyən edən müvafiq daxili sənədin qəbul olunması vacibdir.*

*Hazırkı "Biznes Etikası Məcəlləsi" Cəmiyyətin missiya və məqsədlərinə nail olmaq üçün davranış normalarını və biznes fəaliyyətinin təşkilində istiqamətləri, etika prinsiplərini müəyyən edir. Cəmiyyət üzrə davranış normalarının müəyyən edilməsi ümumilikdə Cəmiyyətin imicinin qorunması məqsədini daşıyır. Cəmiyyətin işgüzar və koorporativ fəaliyyəti ədalətli, şəffaf, ən qabaqcıl təcrübəyə uyğun və xoş məramla yerinə yetirilməlidir. Cəmiyyətin işçiləri nəzakətli olmalı, tapşırılmış işi səmərəli, effektiv və etika normaları çərçivəsində görməlidirlər.*

*"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi"*
*Qapalı Səhmdar Cəmiyyətinin rəhbərliyi*

## 1. Ümumi müddəalar və əsas prinsiplər

1.1. “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyətinin (bundan sonra – Cəmiyyət) “Biznes Etikası Məcəlləsi” (bundan sonra – Məcəllə) Cəmiyyətdə çalışan bütün işçilərin davranış etikası, etika normaları, prinsipləri və onlara əməl edilməsi ilə bağlı münasibətləri, habelə peşə fəaliyyəti zamanı etika prinsipləri üzrə əsas tələbləri müəyyən edir.

1.2. Bu Məcəllə Azərbaycan Respublikasının qanunvericiliyinin tələbləri nəzərə alınmaqla, qəbul edilmiş işgüzar davranış və etika standartlarına uyğun olaraq işlənib hazırlanmışdır.

1.3. Bu Məcəllənin əsas prinsipləri - vahid və dəqiq etika normaları və dəyərlərinin, eləcə də Cəmiyyətin daxilində və qarşı tərəflərlə, o cümlədən üçüncü şəxslərlə münasibətlərdə peşəkar davranışın prinsiplərinin tətbiq edilməsi, Cəmiyyətdə doğruluq, düzlük, etibarlı və qarşılıqlı hörmət mühitinin yaradılması və dəstəklənməsi, Cəmiyyətin fəaliyyətində şəffaflığın təmini və biznes tərəfdaşlarının, təchizatçıların, müştərilərin, digər qarşı tərəflərin, hakimiyyət orqanlarının və üçüncü tərəflərin qarşısında etibarın artırılması, işçilərin qeyri-etik davranışı və ya obyektiv olaraq qeyri-etik və ya tətbiq edilən qanunvericiliyə zidd hesab olunan davranışla bağlı nüfuzuna dair risklərin azaldılmasından ibarətdir.

1.4. Cəmiyyətin Biznes Etikası Məcəlləsi, Cəmiyyətin rəhbərliyinin əqidəsinə, dəyərlərinə və peşəkar standartlara əsaslanır və işçilərin korporativ mədəniyyət səviyyəsinin artırılması, korporativ idarəetmənin ən yaxşı təcrübələrə uyğun yerinə yetirilməsi və Cəmiyyətin işgüzar nüfuzunun lazımi səviyyədə dəstəklənməsi məqsədilə ədalətli biznesin yüksək etika standartlarına sadiqliyini əks etdirir.

1.5. Cəmiyyət tərəfindən yerinə yetirilən hər hansı tədbir, əməliyyat, danışıq və ümumiyyətlə, əməkdaşlarının öz vəzifələrini yerinə yetirən zaman davranışı ədalət, məlumatın tamlığı və şəffaflığı, forma və məzmununun qanuniliyi, o cümlədən bütün daxili sənədlərin aydınlığı və həqiqiliyi qüvvədə olan qanunlara, ən yüksək etik dəyərlərə (normalara) və beynəlxalq qaydalara uyğunluq prinsiplərinə əsaslanır. Cəmiyyətin fəaliyyəti peşəkarlıqla, yüksək biznes etikası ilə, habelə Cəmiyyətin imici və nüfuzunu qorumağa qabil olan yolla yerinə yetirilir.

1.6. Cəmiyyətin rəhbər şəxsləri və işçiləri, o cümlədən tabeliyində olan qurumların işçiləri tutduqları vəzifədən, Cəmiyyətlə və ya tabeliyində olan qurumlarla əmək münasibətlərinin müddətindən asılı olmayaraq, öz vəzifə borclarının yerinə yetirilməsi və Cəmiyyət və ya onun tabeliyində olan qurumun adından fəaliyyətin həyata keçirilməsi çərçivəsində insan və vətəndaş hüquqları və azadlıqlarına hörmət, qanunçuluq, humanizm prinsiplərini və digər demokratik prinsipləri, yüksək etik davranış normalarını rəhbər tutaraq hazırkı Məcəllənin müəyyən etdiyi etika normaları və dəyərlərinə əməl etməlidirlər.

1.7. Hazırkı Məcəllə ilə müəyyən edilmiş etika normaları və dəyərlərini, eləcə də tətbiq edilən qanunvericiliyin tələblərini pozmuş işçilər Cəmiyyətin daxili sənədlərinin və tətbiq edilən qanunvericiliyin nəzərdə tutduğu qaydada və əsaslarla intizam məsuliyyətinə və digər məsuliyyətə cəlb ediləcəklər.

1.8. Cəmiyyət tətbiq edilən qanunvericiliyin tələblərinə riayət edir, habelə fəaliyyət göstərdiyi ölkələrin mədəni ənənələrini və işgüzar qaydalarını nəzərə alır.

1.9. Cəmiyyət öz fəaliyyətini düzgün aparır, bütün vəzifələrini yerinə yetirir və etibarlı tərəfdaş adını saxlamağa çalışır, habelə lazım olan məlumatı özünün rəsmi internet saytında, hesabatlarda (davamlı inkişaf haqqında hesabat və s.), mətbuat yayımlarında, kütləvi informasiya vasitələrində dərc edərək və ya digər şəkildə açıqlayaraq, apardığı əməliyyatların və sövdələşmələrin şəffaflığını təmin edir.

## 2. Əsas anlayışlar

- **Cəmiyyətin struktur bölmələri** – Cəmiyyətin aparatının struktur bölmələri – idarə, departament, şöbə, qrup və s.

- **Cəmiyyətin tabeliyində olan qurumlar** – Cəmiyyətin tərkibinə daxil olan törəmə müəssisələr, habelə idarə, təşkilat, filial və nümayəndəliklər.

- **Hakimiyyət orqanları** – Azərbaycan Respublikasının və digər dövlətlərin istənilən dövlət hakimiyyət orqanları və ya yerli özünüidarə orqanları, o cümlədən qanunvericilik, icra (məsələn hökumət departamentləri, idarələri və nazirlikləri) və məhkəmə hakimiyyəti orqanları.

- **İşçi** – işəgötürənlə əmək münasibətləri və ya mülki-hüquq xarakterli münasibətləri olan fiziki şəxs.

- **Rəhbər işçilər**– Cəmiyyətin sədri, sədr müavinləri, Komitələrinin üzvləri, Cəmiyyətin struktur bölmələrinin, tabeliyində olan qurumların rəhbərləri, eləcə də Cəmiyyətin və onun struktur bölmələrində, qurumlarında idarəetmə funksiyalarına sahib olan digər vəzifəli şəxslərdir.

- **Üçüncü şəxslər** – Cəmiyyətin işçisi olmayan hər hansı fiziki şəxs, eləcə də strukturuna daxil olmayan hər hansı hüquqi şəxs, təşkilat.

- **Qarşı tərəf** – Cəmiyyətin əmək münasibətləri istisna olmaqla, hər hansı müqavilə münasibətləri qurduğu hüquqi və ya fiziki şəxs (o cümlədən xarici hüquqi və ya fiziki şəxs).

- **Yaxın qohumlar** – həyat yoldaşı, valideynlər, övladlar, övladlığa götürənlər, övladlığa götürülənlər, qardaş və bacılar, baba və nənələr, nəvələr.

- **Aktivlər** – maddi, maliyyə və qeyri-maddi aktivlərin, qiymətlilərin və əmlakın məcmusu.

- **Maraqların toqquşması** – işçinin və ya onun yaxın qohumlarının şəxsi maraqlarının Cəmiyyətin maraqlarına zidd olan və ya zidd ola bilən və onun və ya onun yaxın qohumlarının şəxsi marağı olan, nəticədə vəzifələrin lazımınca yerinə yetirilməsinə, o cümlədən obyektiv qərarların qəbul edilməsinə təsir göstərə biləcək vəziyyət və ya şəraitlər.

- **Şəxsi kommersiya maraqları** - fiziki şəxsin hər hansı əmlak, maliyyə, siyasi və digər kommersiya maraqları.

- **Şəxsi maraqlar** – fiziki şəxsin hər hansı şəxsi və sosial (əmlak, maliyyə, siyasi və digər kommersiya maraqları istisna olmaqla) maraqları.

- **Tətbiq edilən qanunvericilik** – Azərbaycan Respublikasının qanunvericiliyinin, eləcə də beynəlxalq qanunvericilik və normativ-hüquqi aktların və xarici dövlətlərin qanunvericiliyinin Cəmiyyətə və ya onun işçilərinə müvafiq şəraitdə tətbiq edilən norma və tələbləri (məsələn, konkret dövlətin ərazisində fəaliyyətin həyata keçirilməsi, xarici qarşı tərəflə müqavilə şərtləri və s.) deməkdir.

## 3. Etika prinsipləri və peşə fəaliyyəti zamanı əsas tələblər

3.1. ***Qanunilik*** – Qanunvericilik, digər norma və qaydalara riayətin təmin edilməsi məqsədilə Cəmiyyətin işçiləri:

- öz vəzifə borclarını vəzifə təlimatları, əmək müqavilələri, Cəmiyyətin daxili sənədləri, eləcə də bu Məcəllə və tətbiq edilən qanunvericiliyə riayət etməklə yerinə yetirməli;
- istehsalat qaydalarını və təhlükəsizlik texnikasının tələblərini, eləcə də tətbiq edilən qanunvericilik və Cəmiyyətin daxili sənədləri ilə müəyyən edilmiş ətraf mühitin qorunması və ekologiya üzrə tələbləri yerinə yetirməli;
- korrupsiyanın istənilən forma və təzahürlərini qəbul etməmək prinsipinə ("dözümsüzlük") tərəfdar olmalı və "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti üzrə Korrupsiya ilə mübarizəyə dair Təlimat"ın tələblərini yerinə yetirməli;
- birbaşa və ya yuxarı rəhbərinin qanunazidd olmayan və səlahiyyətləri daxilində qəbul etdiyi yazılı əmri, sərəncamı, verdiyi şifahi tapşırıqları yerinə yetirməli, subordinasiyaya riayət etməli;
- iş vaxtı ərzində üzrlü səbəblər olmadan iş rejiminin pozulmasına səbəb olan hərəkətlər etməməli;
- xidməti fəaliyyəti və davranışı barədə rəhbərlik və ya araşdırma aparmaq səlahiyyəti olan şəxslər tərəfindən verilmiş suallara tam və düzgün cavab verməli;
- gündəlik və peşəkar fəaliyyətində qeyri-qanuni, qeyri-etik və ya qanuniliyi, etikaya uyğunluğu şübhə doğura bilən hərəkətlərə yol verməməlidir.

3.2. ***Effektivlik*** - İşgüzar fəaliyyətin effektivliyini təmin etmək məqsədilə Cəmiyyət:

- Korporativ idarəetmə sistemini təkmilləşdirir;
- Öz istehsal fəaliyyətində innovasiyaları tətbiq edir;
- Təbii ehtiyatları maksimal dərəcədə effektiv və qənaətlə sərf edir, eləcə də ətraf mühitin qorunması üçün mümkün olan bütün tədbirləri görür;
- Ayrı-ayrı istiqamətlərin, biznes-proseslərinin və ümumiyyətlə Cəmiyyətin fəaliyyətinin effektivliyini artırmaq, habelə mənfəəti maksimal səviyyəyə çatdırmaq imkanı yaradan digər qanuni tədbirləri həyata keçirir.

3.3. ***Düzlük və peşəkarlıq*** - Vəzifə borclarını yerinə yetirdiyi və idarəetmə qərarlarını qəbul etdiyi zaman Cəmiyyətin işçiləri:

- Cəmiyyətin qarşı tərəflərinin seçilməsini və onlarla əməkdaşlığı vicdanla, obyektiv və qərəzsiz həyata keçirməyi, fırıldaqçılıq hərəkətlərindən və işlərin vicdansız, laqeydcəsinə görülməsindən çəkinməli;
- öz vəzifə borclarını müəyyən edilmiş vaxtda, lazımi peşəkarlıq və səriştə ilə yerinə yetirməli;
- iş yoldaşları ilə effektiv bilik mübadiləsini təmin etməli;

- digər işçilərin və üçüncü şəxslərin, o cümlədən hakimiyyət orqanları nümayəndələrinin təzyiqi altında qərarların qəbul edilməsindən və ya vəzifə borclarının yerinə yetirilməsindən çəkinməli;
- qeyri-etik rəqabət metodlarından çəkinməli;
- müstəsna olaraq Cəmiyyətin maraqlarına uyğun hərəkət etməli və hər hansı maraqların toqquşmasından çəkinməli, fərdi məqsədlərlə və ya yaxın qohumların məqsədləri üçün xidməti vəzifələrini, məxfi məlumatı, Cəmiyyətin maddi və ya qeyri-maddi aktivlərini, habelə yaranan işgüzar fürsətləri istifadə etməməli;
- yalnız səlahiyyətləri daxilində və lazımi bilik, səriştə və təcrübələri çərçivəsində olan tapşırıq və işləri yerinə yetirməli;
- qərar qəbul edərkən vəziyyəti dəqiq və hərtərəfli öyrənməli, kifayət olmayan və ya yoxlanılmamış məlumata əsaslanan qərarların qəbul edilməsindən çəkinməli;
- iş yoldaşları, rəhbərlik, tərəfdaşlar, qarşı tərəflərin nümayəndələri və digər şəxslərlə ünsiyyət zamanı yoxlanılmamış və ya səhv məlumat verməməli;
- qarşı tərəflər haqqında məxfi məlumatı səlahiyyəti olmayan şəxslərin icazəsiz müdaxiləsindən qorumalı;
- Cəmiyyətin və üçüncü şəxslərin iş əsnasında istifadə edilən aktivləri və resurslarına məsuliyyətli, eləcə də ehtiyatla yanaşmalı;
- vəzifə borclarını özləri və ətrafdakılar üçün təhlükəsiz qaydada, eləcə də Cəmiyyətə ziyan vurmadan yerinə yetirməli;
- Cəmiyyət və ya onun işçiləri üçün bütün riskli, təhlükəli vəziyyətlər haqqında birbaşa rəhbərə və ya hazırkı Məcəllə və Cəmiyyətin daxili sənədləri ilə nəzərdə tutulmuş şəxslərə məlumat verməli;
- iş yoldaşlarına, eləcə də müştərilərin, işgüzar tərəfdaşların və Cəmiyyətin digər qarşı tərəflərinin nümayəndələrinə tutduğu vəzifədən, cinsindən, yaşından, milli və dini mənsubiyyətindən və s. asılı olmayaraq, hörmətcil, nəzakətli və xeyirxah münasibət göstərməlidirlər.

3.4. ***<u>Sosial məsuliyyət</u>*** - Korporativ sosial məsuliyyət siyasəti çərçivəsində Cəmiyyət:

- ətraf mühitin qorunması üzrə tədbirlər görür;
- öz işçiləri üçün müxtəlif sosial proqramlar, tədbirlər işləyib hazırlayır və həyata keçirir;
- Cəmiyyətin və ölkədə dəniz nəqliyyatının davamlı inkişafı üçün müxtəlif sahələrdə layihələr hazırlayır və həyata keçirir.

3.5. ***<u>Rəhbər işçilərin rolu və nümunəvi (örnək) davranış</u>*** - Cəmiyyət üzrə rəhbər şəxslər (işçilər):

- Hazırkı Məcəllənin müəyyən etdiyi etika normaları və prinsiplərin yerinə yetirilməsində şəxsi nümunə göstərməli;
- İşçilərlə münasibətdə ədalətli olmalı, onların təklif, ideya, tələb və şikayətlərinə diqqətlə və vaxtında cavab verməli;
- Ayrı-seçkilikdən çəkinməli, işçiləri xidməti irəliləyiş baxımından eyni hüquq və imkanlarla təmin etməli;
- İşçiləri onların həyatı və səhhətinə zərər vurmayan əmək şəraiti ilə təmin etməli;

- Cəmiyyətlə işçilərin münasibətlərini hörmət və qarşılıqlı maraqlar nəzərə alınmaqla sosial tərəfdaşlıq əsasında qurmalı;
- Cəmiyyətdə işçilərin əsassız ixtisarına gətirən qərarların qəbul edilməsindən çəkinməli;
- İşgüzar fəaliyyəti dövlət və cəmiyyət qarşısında sosial məsuliyyəti nəzərə almaqla həyata keçirməli;
- Cəmiyyətdə doğruluq, düzlük, qarşılıqlı hörmət və vicdanlılıq mühitinin dəstəklənməsinə səbəb olan digər tədbirlər görməlidirlər.

## 4. İşçilərə qarşı münasibət və Cəmiyyət üzrə işgüzar davranış normaları

4.1. Cəmiyyət işçilərinin hamısına peşəkarlıq və qabiliyyət səviyyəsini artırmaq üçün eyni imkanlar yaradan sağlam iş mühitini yaratmağa və dəstəkləməyə çalışır.

4.2. İşçilərlə münasibətlər, o cümlədən onların işə götürülməsi və işdən azad edilməsi, attestasiyası və qiymətləndirilməsi, təlimləndirilməsi və ixtisaslarının artırılması, xidməti irəliləyişi, kompensasiya, mükafatların ödənilməsi və s. tətbiq edilən qanunvericiliyə dəqiq riayət edilməklə qurulmalı, şəffaf olmalı və yalnız obyektiv meyarlara əsaslanmalıdır.

4.3. Cəmiyyətin işçisinin səriştəsi və peşəkarlığı cinsi, irqi, milli və dini mənsubiyyəti, fiziki məhdudiyyətləri, siyasi baxışları və s. nəzərə alınmadan, eləcə də işçilər arasında ayrı-seçkiliyə yol verilməməklə yalnız işçinin ixtisası, iş nəticələri və digər istehsal nəticələri ilə müəyyən edilir.

4.4. Cəmiyyət siqaretdən, spirtli içkilərdən və narkotik vasitələrdən uzaq bir iş mühitini dəstəkləyir.

4.5. *Hörmətsiz davranış, zorakılıq və hədələrdən imtina:*

4.5.1. Cəmiyyətin işçiləri öz iş yoldaşlarına, qarşı tərəflərin nümayəndələrinə və üçüncü şəxslərə hörmətlə yanaşmalı, ixtilafa, yersiz mübahisələrə, Cəmiyyətin və ya işçinin peşəsinin nüfuzuna mənfi təsir göstərə biləcək hərəkətlərə yol verməməlidirlər.

4.5.2. Cəmiyyətin işçilərinin iş yoldaşlarına, qarşı tərəflərin nümayəndələrinə və üçüncü şəxslərə qarşı təhqiredici, alçaldıcı və digər bədxah hərəkətlər etməsi qadağandır.

4.5.3. Cəmiyyətdə iş yoldaşlarına, qarşı tərəflərin nümayəndələrinə və üçüncü şəxslərə qarşı zorakılıq, o cümlədən fiziki, şifahi, yazılı və digər hədələr qadağandır.

4.5.4. Cəmiyyətin işçiləri tərəfindən təhqiredici və alçaldıcı materialların, eləcə də işçilərin, qarşı tərəflərin nümayəndələrinin və üçüncü şəxslərin nüfuzuna ziyan vura bilən digər məlumatların yayılması qadağandır.

4.6.*Spirtli içkilər, narkotik və digər maddələrin qəbul edilməsinin qadağan edilməsi:*

4.6.1. Hər hansı bir işçinin spirtli içkilərdən, qadağan olunmuş dərmanlardan istifadə etməsi onun təhlükəsiz və səmərəli çalışmaq bacarığına və imkanına zərər vurur. İşçilərin istehsal və şəxsi təhlükəsizliyinin təmin edilməsi, eləcə də etika normaları və dəyərlərinin yerinə yetirilməsi məqsədilə iş yerində və ya vəzifə borclarını yerinə yetirdikləri zaman Cəmiyyətin işçiləri tərəfindən spirtli içki, narkotik və tətbiq edilən qanunvericiliklə qadağan edilmiş digər maddələrin qəbul edilməsi qəti qadağandır.

4.6.2. İş yerində olduğu və ya vəzifə borclarını yerinə yetirdiyi zaman işçinin spirtli içki və ya narkotik maddələr qəbul edərək sərxoşluq vəziyyətində olması, tətbiq edilən Əmək Məcəlləsinə

uyğun olaraq intizam pozuntusu hesab olunur və işçi işdən azad olunanadək qüvvədə olan qanunvericilik, əmək müqaviləsi və Cəmiyyətin daxili sənədlərinə uyğun olaraq məsuliyyət daşıyır.

4.7. *Maraqların toqquşmasına yol verməmək:*

4.7.1. Vəzifə borclarını yerinə yetirdiyi zaman işçi Cəmiyyətin maraqlarını öz şəxsi və şəxsi kommersiya maraqlarından üstün tutmalı və maraqların toqquşmasına gətirən və ya gətirə biləcək şəxsi maraqlara yol verməməlidir. Cəmiyyət öz işçilərinin maraqlarına hörmət edir və onların işdən asudə vaxtda qanuni maliyyə, sahibkarlıq, siyasi və digər fəaliyyətlə məşğul olmaq hüququnu qəbul edir, o şərtlə ki, həmin fəaliyyət və maraqlar onların Cəmiyyətdəki vəzifə borclarını yerinə yetirmək qabiliyyətinə təsir göstərməsin. Belə halların yaranması riskini minimuma endirmək üçün Cəmiyyətin işçiləri:

- Hər hansı işgüzar məsələlərlə bağlı qərarların qəbul edilməsi və öz vəzifə borclarının yerinə yetirilməsi çərçivəsində yalnız Cəmiyyətin maraqlarını rəhbər tutmalı;
- Maraqların toqquşmasına gətirə biləcək maliyyə və digər öhdəliklərdən çəkinməli;
- Cəmiyyətin işgüzar maraqları ilə ziddiyyətə, potensial maraqların toqquşmasına gətirə biləcək şəxsi və ya şəxsi kommersiya maraqları haqqında məlumatı açıqlamalı;
- Cəmiyyətin rəqiblərinin fəaliyyət nəticələrində şəxsi maraqlara sahib olmamalı;
- Qarşı tərəflərin idarəetmə orqanlarına üzv olmamalı;
- Xidməti vəziyyətin şəxsi maraqlar üçün istifadə edilməsinə yol verməməlidir və s.

4.7.2. Maraqların toqquşmasını üzə çıxarmaq üçün hər bir konkret hal fərdi qaydada, bütün mövcud şəraitlər nəzərə alınmaqla nəzərdən keçirilməlidir.

4.7.3. Cəmiyyətin maraqları və işçinin şəxsi kommersiya maraqları arasında maraqların toqquşması halı yarananda (faktiki maraqların toqquşması halı) və ya yaranması riski (potensial maraqların toqquşması halı) olanda Cəmiyyətin işçisi bu haqda özünün birbaşa rəhbərinə xidməti yazı (İşçinin adı, soyadı, atasının adı, vəzifəsi, şöbəsi/struktur bölməsi, potensial və ya faktiki maraqların toqquşmasının məzmunu göstərilməklə) təqdim etməyə borcludur.

4.7.4. İşçinin birbaşa rəhbəri aldığı xidməti yazıda əksini tapmış maraqların toqquşması məsələsini həll etmək üçün Cəmiyyətin daxili sənədləri ilə nəzərdə tutulmuş tədbirlər görür və lazım olduqda aidiyyəti struktur bölməyə (Hüquq departamenti) təqdim edir.

4.7.5. Cəmiyyətin işgüzar maraqları və şəxsi maraqlar arasında yaranan faktiki maraqların toqquşması hallarının mövcudluğu, eləcə də Cəmiyyətdə özünün birbaşa tabeliyində yaxın qohumları olan Cəmiyyətin bütün işçiləri bu haqda müvafiq struktur bölməyə (İRİD və ya PİƏŞ) öz ad, soyad və atasının adı, vəzifəsi, işlədiyi struktur bölmənin adı və yaxın qohumu haqqında da eyni məlumatları əks etdirən yazılı xəbərdarlıq etməlidir. Qeyd olunan məlumatla bağlı öhdəlik (yaxın qohumların mövcudluğu hallarında) Cəmiyyətin yüksək vəzifəli şəxsinin (rəhbər işçisinin) birbaşa tabeliyində olduğu Cəmiyyətin işçisinə aiddir. Bu bənddə göstərilən müvafiq struktur bölmə maraqların toqquşması ilə bağlı məsələləri Cəmiyyətin daxili sənədlərinə uyğun olaraq tənzimləyir, lazım olduqda aidiyyəti struktur bölməni məlumatlandırır. Bu bənddə qeyd olunan müvafiq struktur bölmənin əldə etdiyi maraqların toqquşması haqqında məlumatlar konfidensialdır və aidiyyəti struktur bölmənin və ya Cəmiyyətin sədrinin icazəsi olmadan Cəmiyyətin digər işçilərinə və üçüncü şəxslərə açıqlana bilməz.

4.7.6. Potensial və ya faktiki maraqların toqquşması haqqında bilərəkdən xəbər verməyən Cəmiyyətin işçisi Cəmiyyətin, hüquq mühafizə orqanlarının və ya digər şəxslərin təşəbbüsü ilə

tətbiq edilən qanunvericiliyin və Cəmiyyətin daxili sənədlərinin nəzərdə tutduğu əsaslarla inzibati, mülki-hüquqi və ya cinayət məsuliyyətinə cəlb edilə bilər.

4.8. *Aktivlərin qorunmasının təmin edilməsi:*

4.8.1. Cəmiyyətin bütün aktivləri və ehtiyatları yalnız işçilərin vəzifə borclarının yerinə yetirilməsi çərçivəsində istifadə edilə bilər. Bununla əlaqədar Cəmiyyətin işçiləri:

- Vəzifə borclarının yerinə yetirilməsi çərçivəsində onlara təqdim edilmiş Cəmiyyətin aktivlərini və ehtiyatlarını effektiv və təyinatı üzrə istifadə etməli;
- Cəmiyyətin istifadə edilən aktivləri ilə səliqəli və ehtiyatla rəftar etməli;
- Cəmiyyətin aktivləri ilə işləmək səlahiyyəti və qaydası ilə bağlı təsdiq edilmiş təlimat, qayda və prosedurlara dəqiq riayət etməli;
- Cəmiyyətin aktivlərini şəxsi məqsədlərlə və ya yaxın qohumlarının məqsədləri üçün istifadə etməməldir və s.

4.9. *Məlumatların məxfiliyinin və şəxsi məlumatların qorunmasının təmin edilməsi:*

4.9.1. Məxfi məlumatın açıqlanması Cəmiyyətə və ya onun işgüzar nüfuzuna ziyan vura bildiyinə görə, Cəmiyyət məlumatların məxfiliyinin və şəxsi məlumatların qorunmasının təmin edilməsinə xüsusi diqqət yetirir. Məlumatların məxfiliyinin və şəxsi məlumatların qorunmasının təmin edilməsi sahəsində Cəmiyyətin başlıca prinsiplərinə aşağıdakılar daxildir:

- Şəxsi məlumatların toplanması, istifadə edilməsi və qorunması və məxfi məlumatın təmin edilməsi sahəsində tətbiq edilən qanunvericiliyin normalarının və Cəmiyyətin daxili sənədlərinin tələblərinin yerinə yetirilməsi;
- Məxfi məlumatın müstəsnasız xidməti təyinatına görə vəzifə borclarının və tətbiq edilən qanunvericiliyin icrası çərçivəsində istifadə edilməsi;
- Məxfi məlumatın və şəxsi məlumatların itirilməsi, məhv edilməsi, korlanması, dəyişdirilməsi, icazəsiz istifadə edilməsi, açıqlanması və s. risklərindən təhlükəsizlik vasitələrini tətbiq etməklə lazımi qaydada qorunması;
- Məxfi məlumatın hər hansı digər şəxslərə, o cümlədən işləri belə məlumatın istifadə edilməsi ilə bağlı olmayan işçilərə açıqlanması yalnız tətbiq edilən qanunvericiliyin müəyyən etdiyi qaydada və əsaslarla və ya məlumatın sahibinin müvafiq icazəsi olduğu təqdirdə həyata keçirilir;
- Şəxsi məlumatların işlənməsi Azərbaycan Respublikasının və tətbiq edilən digər qanunvericiliyin normalarına dəqiq riayət edilməklə həyata keçirilir.

4.9.2. Üçüncü şəxslərin tələbləri qanuna əsaslandığı, Cəmiyyətin daxili sənədləri və ya tətbiq edilən qanunvericiliyin digər şərtlərinin nəzərdə tutduğu hallar istisna olmaqla, Cəmiyyətə aid məxfi məlumatları əldə etmək imkanı olan işçilər, həmin məxfi məlumatların üçüncü şəxslərə, o cümlədən hakimiyyət orqanlarının nümayəndələrinə, digər işçilərə və yaxın qohumlarına açıqlamamalıdırlar (hətta özlərinin əmək münasibətləri və ya vəzifə öhdəlikləri başa çatdıqdan sonra).

4.9.3. Cəmiyyətin işçilərinə Cəmiyyətdə işlədikləri müddət ərzində əldə edilmiş ictimaiyyətə açıqlanmayan məlumatları şəxsi maraqları, şəxsi kommersiya maraqları və ya yaxın qohumları üçün istifadə etmələri qadağan edilir.

4.10. *İnformasiya texnologiyalarından istifadə qaydaları:*

4.10.1. Cəmiyyətin hər bir işçisi, ona verilmiş kompüter sistemləri və digər informasiya texnologiyalarından sırf Cəmiyyətin məqsədləri və vəzifə borcunun yerinə yetirilməsi üçün istifadəyə görə cavabdehdir.

4.10.2. İşçinin Cəmiyyətin kompüter sistemləri və digər informasiya texnologiyalarından şəxsi kommersiya maraqları üçün istifadə etməsinə icazə verilmir.

4.10.3. Cəmiyyətin işçiləri kompüter sistemləri və digər informasiya texnologiyalarından istifadə etdikləri zaman tətbiq edilən qanunvericiliyin, informasiya təhlükəsizliyi üzrə qüvvədə olan normaların və Cəmiyyətin daxili sənədlərinin tələblərinə riayət etməlidirlər.

4.10.4. Cəmiyyətin işçilərinə kompüter sistemləri və digər informasiya texnologiyalarından istifadə zamanı aşağıdakıları etmək qadağandır:

- Müvafiq icazə almadan əlavə proqram yükləmək və ya lazımi lisenziya olmadan avadanlıq qoşmaq;
- Cəmiyyət tərəfindən quraşdırılmış (tətbiq edilən) müvafiq proqramları söndürmək və Cəmiyyətin informasiya təhlükəsizliyinin tələblərini nəzərə almamaq;
- Ədəbsiz və ya təhdidedici xarakterli məlumatlara baxmaq, yükləmək və ötürmək;
- Şəxsi biznesinin aparılması məqsədilə Cəmiyyətin rəqibi olub-olmamasından asılı olmayaraq digər təşkilatlara iş görmək və ya xidmət göstərmək;
- Əqli mülkiyyət hüquqlarını pozmaq (eləcə də əqli mülkiyyət hüququ olan materialları yükləmək, ötürmək və s.);
- “Kibercinayət” (məsələn, spam və ya virus göndərmək, hakerlik etmək, digər şəxsin adından mesaj göndərmək və s.) törətmək və s.

4.10.5. Cəmiyyətin işçiləri, onların korporativ elektron poçt və digər vasitələrlə, onlara aid kompüter və digər informasiya sistemlərində olan məlumatlar üzrə şəxsən məsuliyyət daşıyırlar. İş yoldaşının kompüter sisteminə və digər informasiya texnologiyalarına girişə həmin şəxsin icazəsi olmadan icazə verilmir.

4.10.6. Məlumatların qorunması, dələduzluq riskinin minimuma endirilməsi və “kibercinayətin” törədilməsinin qarşısının alınmasını təmin etmək məqsədilə Cəmiyyət, işçilərin kompüter sistemləri və digər informasiya texnologiyalarından istifadəsinin monitorinqini aparır.

4.10.7. Cəmiyyət, kompüter sistemlərində və ya digər informasiya texnologiyalarında qeydiyyatda olan və ya saxlanılan, onun işçilərinə vəzifə borclarını yerinə yetirmək üçün təqdim olunan məlumatlara tətbiq edilən qanunvericiliyin tələblərinə əsasən (məsələn, cinayət işlərilə bağlı xidməti istintaq zamanı və s.) baxılması və lazım olduqda açıqlanması hüququnu özündə saxlayır.

4.11. *Məlumatların açıqlanması:*

4.11.1. Kütləvi informasiya vasitələrinə, hökumət orqanlarına, investorlar və digər maraqlı şəxslərə məlumatların açıqlanması qaydası Cəmiyyətin Nizamnaməsi, daxili sənədləri və tətbiq edilən qanunvericiliyə uyğun həyata keçirilir.

4.11.2. Məlumatların açıqlanması yalnız məlumatın etibarlılığını, dəqiqliyini və dolğunluğunu (bütün mövcud faktların aydınlaşdırılmasını) təmin edən Cəmiyyətin müvafiq səlahiyyətli işçisi tərəfindən həyata keçirilir.

## 5. Qarşı tərəflərlərlə işgüzar əlaqələrə dair normalar

5.1. Qarşı tərəflərlə münasibətlərdə Cəmiyyət qanunilik, düzlük, qərəzsizlik, qarşılıqlı hörmət, uzunmüddətli əməkdaşlıq və kömək prinsiplərini rəhbər tutur. Cəmiyyətin qarşı tərəflərlə bütün qarşılıqlı münasibətləri tətbiq edilən qanunvericiliyə, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti üzrə Korrupsiya ilə mübarizəyə dair Təlimat"ın başlıca prinsip və tələblərinə, eləcə də hazırkı Məcəllənin müəyyən etdiyi etika normaları və dəyərlərinə tam riayət etməklə qurulur.

5.2. Cəmiyyət özü və ya digər şəxslər üçün hər hansı qanundankənar üstünlüklərin əldə edilməsi məqsədilə qarşı tərəflərlə münasibətlərindən sui-istifadə etmir.

5.3. Cəmiyyət hər hansı vicdansız rəqabət, üstün və ya inhisar mövqeyindən sui-istifadə təzahürlərini qəbul etmir.

5.4. Cəmiyyət Azərbaycan Respublikasının qanunvericiliyi və Cəmiyyətin daxili sənədləri ilə nizamlanan obyektiv seçim meyarlarının istifadə edilməsinə əsaslanan təchizatçıların, podratçıların və digər qarşı tərəflərin seçilməsi prosesinin düzlüyü, açıqlığı və şəffaflığını təmin edir.

5.5. Cəmiyyət imzalanmış müqavilələr çərçivəsində öz öhdəliklərinin vicdanla yerinə yetirilməsini təmin edir və qarşı tərəflərdən də eyni davranışları tələb edir.

5.6. Cəmiyyət qanuni tələbləri, etika norma və dəyərlərini pozmaqla fəaliyyət göstərən və/və ya korrupsiya fəaliyyətində iştirak edən işgüzar tərəfdaşlarla qarşılıqlı əlaqə riskinin azaldılması üzrə məntiqi səy göstərir.

5.7. Cəmiyyət obyektiv qaydada rəqabəti məhdudlaşdıran və tətbiq edilən antiinhisar qanunvericiliyinə zidd hesab oluna bilən razılaşmaların rəqiblərlə imzalanmasından imtina edir.

## 6. Sağlamlığın və ətraf mühitin qorunması, istehsalatda təhlükəsizlik texnikasına riayət edilməsi

*6.1. Sağlamlığın, əməyin mühafizəsi və istehsalatda təhlükəsizliyin təmin edilməsi:*

6.1.1. Cəmiyyət öz fəaliyyətində işçilər, podratçılar və Cəmiyyətin ərazisində işləyən digər qarşı tərəflər üçün təhlükəsiz iş şəraitini yaratmaq və saxlamaq prinsipini rəhbər tutur. Cəmiyyət öz fəaliyyəti çərçivəsində bədbəxt hadisələrin, istehsalatda zədələnmələrin, peşə xəstəliklərinin və qəza vəziyyətlərinin istisna edilməsi üçün bütün qüvvəsi ilə çalışır.

6.1.2. Cəmiyyətin ərazisində olan işçilərə və digər şəxslərə (o cümlədən sahədəki fəhlələrə) onların həyatına və /və ya səhhətinə, Cəmiyyətin digər işçilərinin həyatına və /və ya səhhətinə və ya üçüncü şəxslərə ziyan vuran və ya vura biləcək, habelə ətraf mühitin çirklənməsi və ya digər zərərlərin vurulması riskini yaradan fəaliyyətlə məşğul olmaq və ya tapşırığı yerinə yetirmək qadağan edilir.

6.1.3. Cəmiyyətin ərazisində olan işçilər və digər şəxslər (o cümlədən sahədəki fəhlələr):

- Tətbiq edilən qanunvericiliyin və Cəmiyyətin daxili sənədlərinin təhlükəsizlik texnikası qaydalarını, istehsalat normalarını və qaydalarını, eləcə də özlərinin iş yerlərində əməyin təhlükəsizliyi normalarını bilməli və bunları dəqiq əməl etməli;
- Vəzifə borclarını yerinə yetirdikləri zaman tətbiq edilən qanunvericilik və Cəmiyyətin daxili sənədləri ilə nəzərdə tutulmuş zəruri fərdi mühafizə vasitələrindən istifadə etməli;

- Təhlükəli materiallarla düzgün və təhlükəsiz davranışı və onların utilizasiya edilməsini təmin etməli, vəzifə borclarını yerinə yetirərkən ehtiyat tədbirlərinə əməl etməli;
- özünün birbaşa rəhbərinə hər hansı təhlükəsizlik texnikasının, ətraf mühitin qorunması və ya digər istehsalat normalarının pozulması faktları, eləcə də yaranmış və ya potensial qəza və ya digər fövqəladə vəziyyətlər haqqında, o cümlədən axmalar, qəzalar, istehsalat zədələri, peşə xəstəlikləri və Cəmiyyətin işçiləri, insanlar və ya ətraf mühit üçün təhlükə yaradan və ya yarada biləcək digər hadisələr haqqında dərhal xəbər verməlidir.

*6.2. Ətraf mühitin qorunması:*

6.2.1. Cəmiyyət Azərbaycan Respublikasında istehsal fəaliyyətində qabaqcıl texnologiyaların tətbiqi və istifadə edilməsi, davamlı inkişafa kömək edilməsi, təbii ehtiyatların səmərəli istifadəsi, ətraf mühitin qorunmasının təmin edilməsi və ekoloji təhlükəsizlik üzrə aparıcı müəssisələrdən biridir.

6.2.2. Cəmiyyət tətbiq edilən qanunvericiliyin ətraf mühitin qorunması və ekologiya üzrə norma və qaydaların yerinə yetirilməsinə dair tələblərə dəqiq riayət edir, habelə Cəmiyyətin istehsalat fəaliyyətinin insanlara, təbiətə və ətraf mühitə mənfi təsirinin azaldılması üzrə bütün mümkün tədbirləri yerinə yetirir.

6.2.3. Cəmiyyət öz tərəfdaşları, podratçıları, təchizatçıları və s. tərəfindən də ətraf mühitin qorunması, əməyin təhlükəsizliyi, istehsalat və ekoloji təhlükəsizlik sahəsində qanunla müəyyən edilmiş normaların, eləcə də Cəmiyyətdə qəbul edilmiş tələblərin yerinə yetiriləcəyinə ümid bəsləyir.

## 7. Yekun müddəalar

7.1. Hazırkı Məcəllənin prinsipləri və müddəalarına əməl edilməməsi əmək münasibətləri çərçivəsində əsas öhdəliklərin və ya daxili intizam qaydalarının pozuntusu hesab olunur.

7.2. Cəmiyyət bu Məcəllənin tələblərinə əməl edilməsini təmin etməyi, habelə hazırkı Məcəllənin tələblərinə əməl edilməsi vəziyyətini yoxlamağı öz üzərinə götürür.

7.3. Hazırkı Məcəllənin müəyyən etdiyi etika normaları və dəyərlərinin tətbiqi üzrə sualları yaranan və ya öz hərəkətlərinin və ya qərarlarının biznes etikası normalarına uyğunluğunda şübhəsi olan Cəmiyyətin işçiləri məsləhət üçün özlərinin birbaşa rəhbərlərinə və/və ya aidiyyəti struktur bölməyə müraciət edə bilərlər.

7.4. Bu Məcəllə ilə tənzimlənməyən hər hansı bir məsələ və ya münasibət Azərbaycan Respublikasının mövcud qanunvericiliyi ilə və ya Cəmiyyətin digər daxili sənədləri ilə tənzimlənir.

7.5. Azərbaycan Respublikasının mövcud qanunvericiliyinin dəyişməsi nəticəsində hazırkı Məcəllənin qanunvericiliklə ziddiyyət təşkil edən bəndləri etibarsız hesab edilir, həmin hissədə qanunvericiliyin müddəası tətbiq edilir və bu halda Məcəllənin digər bəndləri öz hüquqi qüvvəsini itirmir.